# Gəncədə Xocalı soyqırımının ildönümü ilə bağlı ümumşəhər tədbiri keçirilmişdir



**Ötən əsrin ən dəhşətli faciələrindən olan Xocalı soyqırımının ildönümü ilə əlaqədar Gəncədə Xocalı sakinlərinin müvəqqəti məskunlaşdığı "Yeni qəsəbə-2" yaşayış massivindəki "Xocalı" abidəsinin önündə ümumşəhər tədbiri keçirilmişdir.**

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovun, Türkiyənin Gəncədəki Baş konsulu Recep Öztopun, Gürcüstanın vitse-konsulu Şota Dolidzenin, ictimaiyyətin, idarə, müəssisə və təşkilatların nümayəndələrinin və Xocalı sakinlərinin iştirak etdikləri anım tədbirində öncə Dövlət Himni səsləndirilmişdir. Sonra Xocalı soyqırımı barədə ətraflı məlumat verilərək bildirilmişdir ki, ermənilərin və havadarlarının törətdikləri Xocalı soyqırımı nəticəsində 613 nəfər öldürülmüş, 487 nəfər şikəst olmuş, 1275 nəfər dinc sakin - qocalar, uşaqlar, qadınlar əsir götürülərək ağlasığmaz zülmə və təhqirlərə məruz qalmışdır. 150 nəfərin taleyi isə hələ də məlum deyil. Xocalıda öldürülmüş 613 nəfərdən 106-sı qadın, 63-ü uşaq, 70-i isə qocadır. Bu soyqırımında 8 ailə bütövlükdə məhv edilmiş, 24 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirmişdir. Bu cinayətdə 56 nəfər xüsusi qəddarlıq və amansızlıqla qətlə yetirilmişdir.

Vurğulanmışdır ki, bu gün hər bir azərbaycanlı bəşər tarixində ən qanlı cinayətlərdən biri olan Xocalı soyqırımının günahsız qurbanlarının əziz xatirəsini ehtiramla yad etməklə yanaşı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində və ötənilki antiterror əməliyyatında düşmən üzərində qazandığı tarixi Qələbənin qürurunu yaşayır. Bu gün Xocalı şəhəri düşmən tapdağından tamamilə azad edilmişdir. Prezident İlham Əliyev keçən il oktyabr ayının 15-də Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət bayrağını qaldırmışdır. Bu gün artıq soyqırımı qurbanlarının rahatsız ruhları şaddır.

Çıxışlardan sonra Niyazi Bayramov iştirakçılarla birgə "Xocalı" abidəsinin önünə gül dəstələri düzmüş, şəhidlərimizin xatirəsini yad etmişdir. Ardınca isə "Yeni qəsəbə-2" yaşayış massivində məskunlaşan Xocalı sakinləri ilə görüşüb onların problemləri ilə maraqlanmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***